**Aygün Xeyrulla qızı Fətəliyeva**

**UOT:330.83; JEL: A19.**

# XX əsrin 90-cı illərində iqtisadi inkişafin sürətləndirilməsi ilə bağlı irəli sürülən təklif və tövsiyyələr

***Xülasə***

*XX əsrin 90-cı illərində Azərbaycan iqtisadçılarının elmi tədqiqatlarının başlıca məzmunu bazar iqtisadiyyatı münasibətlərinin formalaşması, keçid prosesinin nəzəri-metodoloji və praktiki məsələlərinin araşdırılması, respublika iqtisadiyyatının böhran vəziyyətindən çıxarılaraq sabit inkişaf yoluna daxil olmasının təşkili məsələlərinə həsr olunmuşdu.*

***Açar sözlər:** bazar iqtisadiyyatı, böhran, regionlar, iqtisadi zona, bazar münasibətləri, keçid mərhələsi, tədqiqatlar*

## Giriş

XX əsrin 90-cı illərində Azərbaycan iqtisadçılarının elmi tədqiqatlarının başlıca məzmunu bazar iqtisadiyyatı münasibətlərinin formalaşması, keçid prosesinin nəzəri-metodoloji və praktiki məsələlərinin araşdırılması, respublika iqtisadiyyatının böhran vəziyyətindən çıxarılaraq sabit inkişaf yoluna daxil olmasının təşkili məsələlərinə həsr olunmuşdu. Tədqiqatlar zamanı keçid dövrünün neqativ meylləri, respublika iqtisadiyyatının böhrandan çıxarılması və makroiqtisadi tarazlığa və dinamik iqtisadi inkişafa nail olunması, ölkədə demoqrafik situasiyanın və insan amilinin iqtisadi inkişaf prosesində yeri və rolunun düzgün qiymətləndirilməsi, aqrar sektor, maliyyə və bank, xidmət sahələri, vergi mexanizmlərinin təkmilləşdirilməsi, keçid dövründə Azərbaycan iqtisadiyyatı və iqtisadi fikir tarixinin inkişaf xüsusiyyətləri kimi məsələlərlə əlaqədar çoxşaxəli elmi araşdırmalar aparılmışdır. Görülən elmi işlər barədə bir qədər daha ətraflı dəyərləndirmələrin aparılmasına xüsusi ehtiyac vardır.

## Regionların iqtisadiyyatı problemlərinin tədqiqi

Akademiik A.A.Nadirovun və i.e.d., prof. Ə.X.Nuriyevin rəhbərliyi ilə “Yeni təsərrüfatçılıq şəraitində məhsuldar qüvvələrin yerləşdirilməsi” mövzusu üzrə tədqiqatlar aparılarkən Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünün təkmilləşdirilməsi konsepsiyasının ilkin variantı işlənilib hazırlandı. Mütəxəssislər hesab edirdilər ki, mövcud inzibati bölgü sistemi iqtisadi və çevik idarəetmə baxımından səmərəli deyil və bütün bunları nəzərə almaqla tədqiqatçılar Azərbaycanın dövrün tələblərinə müvafiq iqtisadi rayonlaşması şəbəkəsini hazırladılar. Buraya Abşeron, Quba-Xaçmaz, Lənkəran-Astara, Dağlıq Şirvan, Mərkəzi Aran, Şəki-Zaqatala, Mərkəzi Qarabağ, Gəncə Qazax, Kəlbəcər-Laçın, Naxçıvan iqtisadi rayonları daxil edilmişdi. Tədqiqatçılar tərəfindən “Müxtəlif təsərrüfatçılıq formalarının inkişafı şəraitində respublikanın daxili regionlarında kənd təsərrüfatının ərazi və sahə quruluşunun təkmilləşdirilməsinə dair təkliflər hazırlanmışdı. Eyni zamanda tədqiqatlar zamanı Abşeron və digər sənaye potensialı yüksək olan iqtisadi rayonlarda sənayenin ərazi və sahə quruluşunun təkmilləşdirilməsi istiqamətində təkliflər işlənib hazırlandı. Müşahidələr zamanı müəyyən edilmişdi ki, 1989-cu ildə Bakı-Sumqayıt iqtisadi rayonun respublikanın sənaye məhsulu istehsalında payı 58% idi isə, bu göstəricilər sonrakı illərdə getdikcə artmışdı. 1995-ci ildə 67,3% olmuş, kiçik müəssisələrin 73,2% -i və şərikli müəssisələrin təxmini olaraq 10%-i Bakı və Sumqayıtda yerləşir. Mütəxəssislər respublikanın bütün iqtisadi



© Aygün Xeyrulla qızı Fətəliyeva AMEA-nin İqtisadiyyat İnstitutu, böyük elmi işçi
© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

rayonlarının proporsional inkişaf etdirilməsi üçün elmi əsaslandırılmış fikirlər irəli sürmüşdülər. Sonrakı 1996-1998-ci illərdə akademik A.A.Nadirov və i.e.d Ə.X.Nuriyevin rəhbərliyi ilə "Bazar münasibətlərinə keçid şəraitində Azərbaycan Respublikasında sənaye sahələrinin böhrandan çıxarılması, iqtisadi sabitliyə nail olunması və regionların inkişafı" mövzusu ilə əlaqədar tədqiqatlar aparılmışdır. Müşahidələr zamanı respublika sənayesinin maşınqayırma, metal emalı, yüngül və yeyinti, neft-qaz hasilatı, metallurgiya və digər sahələrində 1990-1995-ci illərdə baş vermiş iqtisadi böhranın səbəbləri nəzərdən keçirilmiş, problemin regional aspektlərdə təzahür xüsusiyyətləri və inkişaf meylləri müəyyənləşdirilmiş, MDB və Azərbaycan iqtisadiyyatın xas olan bir sıra daxili səbəblər təhlil edilmişdir. Eyni zamanda 1996-1999-cu illərdə respublika sənayesində baş vermiş qismən dirçəliş meyllərinin xarakteri təhlil olunmuş, onun sahəvi və regional xüsusiyyətləri müəyyənləşdirilmişdir. Elmi müşahidələrin nəticələri əsasında sənaye sahələrində iqtisadi sabitləşmənin yaradığı imkanlara əsasən respublikanın regionlarında bir sıra tənzimləyici tədbirlərin həyata keçirilməsini əks etdirən təkliflər işlənilib hazırlanmışdır. Eyni zamanda araşdırmalar zamanı Azərbaycan sənayesində yaranmış vəziyyətə təsir edən dağıdıcı amillər nəzərdən keçirilmişdi. Müəyyən edilmişdi ki, 1990-cı ildə 1995-ci il ilə müqayisədə Azərbaycanda sənaye məhsulu 48%, bu sahədə çalışan işçilərin sayı 74,7% olmuşdur. Təhlillər zamanı ölkə iqtisadiyyatında baş verən böhranın səbəbləri iki qrupa bölünürdü. Birinci qrupa MDB ölkələrinə xas olan ümumi xarakterli səbəblər, iqtisadi siyasətin 1985-1995-ci illərdə qeyri müəyyənlik şəraitində həyata keçirilməsi, mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid prosesinin təsirləri, ikinci qrupa sırf Azərbaycan reallıqlarından qaynaqlanan səbəblər aid edilirdi. Buraya birinci növbədə yenidənqurma eksperimentlərinin respublika iqtisadiyyatının aparıcı sahələrinə vurduğu zərər, üzümçülük və şərabçılıq kimi inkişaf etmiş sahələrin demək olar ki, məhv edilməsinə yönəldilən düzgün olmayan siyasətin həyata keçirilməsi, erməni qəsbkarlarının işğalçılıq siyasəti nəticəsində Azərbaycan Respublikasının Qarabağ və ətraf rayonlarına vurulan ziyanlar göstərilirdi. Mütəxəssislər sənaye sahəsində yaranmış böhranlı vəziyyətdən çıxış yolu kimi bir sıra əsaslandırılmış təkliflər irəli sürürdülər. Bu təkliflər içərisində regionlarda çalışan müəssisələrdə tullantısız və daha az tullantılarla çalışan sənaye istehsalı proseslərinin təşkili məsələsi xüsusi olaraq qeyd olunmuşdu.

**R.P.Sultanovanın (i.e.d.prof.)** rəhbərliyi ilə "Qloballaşma şəraitində Azərbaycan regionlarının iqtisadi inkişaf istiqamətləri və onun konseptual əsaslarının tədqiqi" mövzusu işlənilmişdir. Tədqiqatlar zamanı regional inkişafın və təbii sərvətlərdən istifadənin nəzəri metodoloji aspektləri öyrənilmiş, ölkədə təbii sərvətlərdən istifadənin və regionlarda sənayenin müasir vəziyyəti təhlil edilmiş, regionların inkişafı sahəsində əldə edilən uğurlar qiymətləndirilmiş, problemlər aşkar edilmiş, prioritet istiqamətlər müəyyənləşdirilmiş, təbii sərvətlərin səmərəli istifadə olunması və regionlarda sənayenin inkişafı ilə bağlı təklif və tövsiyələr verilmişdir. Aparılan elmi-tədqiqat işlərində Azərbaycan regionlarında sənayenin inkişaf etdirilməsi üçün: regionlar üzrə qeyri-neft sektorunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi; restrukturizasiya və özəlləşdirmə prosesinin sürətləndirilməsi; satış bazarı olan və yenidən qurulması iqtisadi cəhətdən məqsədəuyğun olan sənaye müəssisələrinin fəaliyyətinin bərpasının davam etdirilməsi; müasir texnologiyalara əsaslanan sənaye müəssisələrində beynəlxalq standartların tətbiqinə keçməsinin sürətləndirilməsi; azad rəqabət mühitinin inkişaf etdirilməsi; investisiyaların təşviqi ilə bağlı tədbirlərin həyata keçirilməsinə nail olunması; ənənəvi milli sənətkarlıq sahələrinin inkişafı; elmtutumlu istehsalın inkişaf etdirilməsi kimi tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdir. Son zamanlar ölkədə keçirilən uğurlu iqtisadi islahatlar regionlarda yeni iş yerlərinin artması və sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi, bilavasitə regional sahədə qəbul edilmiş I və II Dövlət Proqramları səyi nəticəsində həyata keçirilmişdir. Belə ki,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

2009-cu ildə ölkə regionlarında infrastruktur layihələrin uğurla həyata keçirilməsi sənaye istehsalına təkan vermiş və artım 8,6% təşkil etmişdir. Bu isə ölkə sənayesinin artırılmasında müəyyən dərəcədə neft amilinin olmasını göstərir. Lakin, bütün bunlara baxmayaraq, respublika regionlarında sənayenin inkişafında müəyyən problemlər də mövcuddur və onların aradan qaldırılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir. Bu baxımdan əsas diqqətin qeyri-neft sektoruna yönəldilməsi zərurəti ortaya çıxır və sənayenin regionlar üzrə qeyri-neft sektorunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi önəmli hesab olunur.

Əvvəlki illərdə aparılan geniş araşdırmalar və təhlil nəticəsində kənd təsərrüfatının inkişafındakı dəyişikliklər, strukturunda baş verən dəyişilmə meyli, istehsalın artım tempi və mövcud çatışmazlıqlar aşkar edilmiş və perspektiv dövrdə dayanıqlı inkişaf etdirilməsi üçün aşağıdakı problemlərin həllinin vacibliyi ön plana çəkilmişdir. Müəyyən edilmişdir ki, respublikada taxıl, pambıq, çay yarpağı, üzüm, tütün və digər az tapılan məhsulları ixrac potensialına çevirmək olar və bu məhsullarla ölkə dünya iqtisadi sisteminin dayanıqlı subyekti kimi çıxış edə bilər. Bunun üçün: müxtəlif mülkiyyət formalarına malik olan iri, orta və kiçik təsərrüfatların səmərəli uzlaşdırılması; kənd təsərrüfatında idarə etmənin təkmilləşdirilməsi; kənd təsərrüfatı, onu texnika ilə təmin edən sənaye sahələri arasında qiymət bərabərliyinin təmin edilməsi; kooperasiya forma və əlaqələrinin inkişaf etdirilməsi; aparılan islahatların təkamül xarakter alması; bazar prinsiplərinin realizə olunmasına dövlət təsirinin iqtisadi metodlarla gücləndirilməsi; kənd təsərrüfatında istehsalçıların məhsul strukturundakı sərbəst seçim edərək monopolizmin yaranmasının qarşısının alınması; dövlətin ən mühüm kənd təsərrüfatı məhsullarının sifarişçisinə çevrilməsi; hər bir regionun təbii iqlim şəraitinə uyğun olaraq ayrılıqda öz prioritet sahələrini seçməsi və bunu digər regionlarla tarazlaşdırılması mühüm əhəmiyyət kəsb edir

Göstərilən konseptual məsələlərin həlli respublikada kənd təsərrüfatının prioritet sahələrinin inkişafını sürətləndirməklə üç əsas problemin həllini təmin edəcəkdir:

- Ölkə daxilində əhalinin yerli istehsal hesabına tələbatının tam ödənilməsi;
- Respublikanın ərzaq təhlükəsizliyinin qorunması;
- Müasir dövrdə gedən qloballaşma və ölkələrarası inteqrasiyaya ölkənin rəqabətqabiliyyətli məhsullarla qoşularaq, dünya bazarının etibarlı subyektinə çevrilməsi.

Son dövrdə ölkədə keçirilən iqtisadi islahatlar regionlarda yeni iş yerlərinin açılması və sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi bilavasitə qəbul olunmuş dövlət proqramları ilə həyata keçirilmişdir. Belə ki, qəbul olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" (2004-2008-ci illər) icrası ilə əlaqədar olaraq Azərbaycan regionlarında son beş ildə 26641 yeni müəssisi yaradılmış, 766300 yeni iş yeri açılmışdır ki, bunun da 547600-i daimidir. İşdə həmçinin Azərbaycan regionlarında sosial sferanın prioritet inkişaf istiqamətlərinin tədqiq edilmişdir. Burada həm də Azərbaycan regionlarında mövcud olan sosial problemlərin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən biri olması vurğulanır. Belə ki, ölkədə son beş ildə baş verən iqtisadi və sosial dəyişikliklər nəticəsində yoxsulluğun səviyyəsinin 35,8% aşağı düşməsi, 2004-cü ilə nisbətən minimum əmək haqqının 8,3 dəfə və minimum pensiyanın təxminən 4 dəfə artması, Azərbaycanda sosial infrastrukturun yeniləşməsi bütün bunlar isə düzgün aparılan sosial-iqtisadi siyasətin nəticəsidir. Tədqiqatda son illərdə baş verən irəliləyişlər və həllini tapmamış problemlər də müəyyənləşdirilmiş və müvafiq təkliflər verilmişdir.

**Elm və xidmət sahələrinin iqtisadiyyatı ilə əlaqədar yerinə yetirilən araşdırmalar. G.Ə.Gənciyevin (i.e.d.)** rəhbərliyi ilə "Bazar iqtisadiyyatı münasibətlərinə keçid mərhələsində elmi texniki tərəqqi və sahələrarası qarşılıqlı əlaqələrin səmərəliliyi" mövzusu



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

işlənilərkən elmin maddi-texniki bazasının inkişaf şərtləri, sahəyə xidmət edən elmi tədqiqat idarələrində elmi məhsuldan istifadənin konversiyası, yeni istehsal münasibətlərinə keçid şəraitində sənayedə istehsalının şəraitinin dəyişilməsi, bazar münasibətləri şəraitində Elmlər Akademiyasının resurslarından istifadə imkanları dəyərləndirilmişdir. Mütəxəssislər hesab edirdilər ki, bazar münasibətlərinin formalaşdığı vaxtlarda fundamental elm sahələrində dəyişikliklərin mexaniki surətdə tətbiqi məqsədəuyğun deyildir. Fundamental elmin fasiləsizliyi, əldə edilən elmi nəticələrin çox zaman maddi xarakter daşımaması bu sahələrin inkişaf etdirilməsi üçün sabit təminatlı maliyyə sisteminin yaradılmasını tələb edir. Tədqiqatçılar öz təhlil və dəyərləndirmələrdən sözügedən maliyyə təminat sisteminin yaradılması yolları ilə əlaqədar öz təkliflərini irəli sürmüşdülər.

**Mollayevin (i.f.d.)** rəhbərliyi ilə "Bazar iqtisadiyyatına keçid mərhələsində elm və ona xidmət sahələrinin fəaliyyətinin təkmilləşdirilməsinin iqtisadi mexanizmi", "Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycanda elmi potensialdan səmərəli istifadə edilməsi" mövzuları ilə əlaqədar tədqiqatlarda diqqətəlayiq fikirlər irəli sürülmüşdür. Təhlillər zamanı müəyyən edilmişdi ki, Elmlər Akademiyasında yerinə yetirilən işlərin 91,4%-i büdcədən, 8,6%-i təsərrüfat hesabına maliyyələşir. Bununla yanaşı sahə elmlərinin 28,9%-inin büdcədən, 71,1%-inin təsərrüfat hesabına maliyyələşdiyi də müəyyən edilmişdi. Mütəxəssislər müəssisələrin istehsalata tətbiq etdiyi innovativ yeniliklərdən əldə edilən səmərələr müqabilində Elmlər Akademiyasına bir sıra layihələrin həyata keçirilməsi üçün güzəştli kreditlər ayrılması, eyni zamanda EA-nın maliyyə öhdəlikləri olan subyektlərinə də güzəştli vergi prosedurları ilə çalışmasına şərait yaradılmasının vacibliyi fikri əsaslandırırdılar. Sonrakı illərdə "Azərbaycanda elmi potensialdan səmərəli istifadə edilməsi" mövzusu ilə əlaqədar aparılan araşdırmalarda Elmi Texniki Tərəqqinin inkişafında elm və elmə xidmət edən sahələrin müasir vəziyyəti kompleks təhlil edilərək qiymətləndirilmişdir. Müşahidələr əsasən üç istiqamətdə aparılırdı:

- Bilavasitə elmi tədqiqat sferasında elmi fəaliyyətlə məşğul olanların elmi tədqiqat səviyyəsinin yüksəldilməsi;
- Elmi tədqiqat proseslərinin, elmi işlərin təşkili formasının təkmilləşdirilməsi;
- İctimai istehsalda elmi nəticələrin tətbiqinin nəticələrinin dəyərləndirilməsi.

**Aqrar sahənin problemlərinin öyrənilməsi ilə əlaqədar İqtisadiyyat İnstitutunda yerinə yetirilən tədqiqatlar**. Müstəqillik illərində AMEA İqtisadiyyat İnstitutunda aqrar sahənin problemlərinin öyrənilməsi ilə əlaqədar diqqətəlayiq araşdırmalar İ.H.Alıyevin rəhbərliyi ilə həyata keçirilmişdir. 19**90-cı** illərdə İ.H.Alıyevin rəhbərliyi ilə "Aqrar münasibətlərin yenidən qurulması və Aqrar Sənaye Komplekslərinin iqtisadi inkişaf mexanizmləri", "Aqrar münasibətlərin bazar iqtisadiyyatı tələblərinə uyğun tənzimlənməsi" mövzuları ilə əlaqədar aparılan araşdırmalarda aqrar islahatlar şəraitində kənd-təsərrüfatı iqtisadiyyatının idarə olunmasının köklü surətdə təkmilləşdirilməsinin nəzəri prinsipləri dəyərləndirilmiş, bu sahədə özəlləşdirmənin radikal üsullarla deyil, təkamül yolu ilə, işsizlik və sosial gərginliyi aradan qaldırmaqla, məşğulluq probleminin həll edilməsinin vacibliyi fikri əsaslandırılırılmışdır. Hesab edilirdi ki, yeni təsərrüfatçılıq və mülkiyyətçilik formalarının inkişafına şərait yaradılmalıdır. Aqrar sahənin hər bir konkret sahəsində hər bir strateji ərzaq məhsulları üzrə istehsal texnologiyasının son məhsula qədər çatdırılması, özəlləşdirmə, çoxmülkiyyətçilik və sahibkarlığın qərarlaşma mexanizmi təhlil olunmuş, xalq təsərrüfatının aqrar sektorunda köklü dəyişikliklərin istiqamətləri müəyyənləşdirilmiş, aqrar sahədə dövlət yardımı sisteminin elmi məzmun və prinsipləri dəyərləndirilmişdi. Sonrakı illərdə "Aqrar münasibətlərin bazar iqtisadiyyatı tələblərinə uyğun tənzimlənməsi" mövzusu işlənilərkən tədqiq edilən məsələlər içərisində ən önəmli məsələ kimi aqrar sahənin tənəzzüldən çıxarılması yollarının müəyyənləşdirilməsi istiqamətində tədqiqatlar aparılmışdı. Burada aqrar



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sahədə tənəzzülün əsas səbəbləri kimi birinci növbədə postsovet məkanında istehsal-iqtisadi əlaqələrinin pozulması, özəlləşdirmənin ləng getməsi, daxili bazarın formalaşmasına vergi və gömrük sisteminin qüsurluluğu, istehsal həcminin tələb və təklif əsasında tənzimlənməsində inzibati idarəçilik metodlarının axıra qədər aradan qaldırılması göstərilirdi. Hesab olunurdu ki, tənəzzülün aradan qaldırılması üçün aqrar islahatların həyata keçirilməsi sürətləndirilməli, təsərrüfatçılığın müxtəlif formalarının təşəkkül tapması üçün xarici investisiyalar tədricən aqrar sektorda strateji bölmələrə yönəldilməlidir. Müşahidələr zamanı həmçinin aqrar sahədə aparılan islahatların gedişatı, kənd-təsərrüfatının ayrı-ayrı sahələrində onun təzahür formaları, aqrar sahədə xüsusi təsərrüfatçılıq formalarının təkmilləşdirilməsi və islahatlarım əsas istiqamətləri, müxtəlif təsərrüfat növlərində, şəxsi və yardımçı təsərrüfatlarda təsərrüfatçılıq mexanizmlərinin bazar iqtisadiyyatı tələblərinə uyğun qurulması və digər məsələlərlə əlaqədar təklif və tövsiyələri işlənilib hazırlanmışdı. Daha sonra 2000-ci illərin əvvəllərində İ.H.Alıyevin rəhbərliyi ilə “Azərbaycanda milli iqtisadiyyatın formalaşması və aqrar münasibətlərin” inkişafı mövzusu ilə əlaqədar tədqiqatlar aparılmışdır. Araşdırmalar zamanı aqrar islahatların daha da genişləndirilməsi, çoxmülkiyyətçilik şəraitində kənddə sahibkarlığın inkişaf etdirilməsi, aqrar sahəyə investisiya axının və maliyyə dəstəyinin gücləndirilməsi, kənd-təsərrüfatının inkişaf etdirilməsinin strateji məsələ olmasının elan edilməsi ilə yanaşı bu sahədə bazar münasibətlərinin iqtisadi inkişafa xidmət etməsi üçün tənzimləyici mexanizmlər və s. ilə əlaqədar təklif və tövsiyələr işlənilib hazırlanmışdı.

**2005-2010-cu illərdə** AMEA-nın müxbir üzvü, i.e.d, prof. A.K.Ələsgərov və i.e.d., prof. İ.H.Alıyevin rəhbərliyi ilə “Qloballaşma şəraitində Azərbaycanda aqrar iqtisadiyyatın dayanıqlı inkişaf istiqamətlərinin tədqiqi” mövzusu ilə əlaqədar araşdırmalar aparılmışdır. Müşahidələr zamanı son illərdə aqrar sektorda baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri təhlil edilmiş və qiymətləndirilmiş, aqrar sahənin inkişafına mane olan amillər müəyyənləşdirilmiş, mövcud olan problemlər aşkar edilmiş və onların həlli ilə bağlı təklif və tövsiyələr hazırlanaraq müvafiq təşkilatlara göndərilmişdir. Tədqiqatın nəticələri təhriri məruzə şəklində müvafiq təşkilatlara göndərilmişdir. Tədqiqatın nəticələrində qeyd olunur ki, aqrar sahənin inkişafı ölkə iqtisadiyyatın ümumi inkişafı ilə daim uzlaşdırılmalı və onun strukturu təkmilləşdirilməli, aqrar sahəyə maliyyə, investisiya qoyuluşları artırılmalıdır. İşdə aqrar sahədə mülkiyyətçilik formalarının və mülkiyyət mexanizminin formalaşması, aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsində dövlət yardımının inkişaf istiqamətləri müəyyən edilmişdir. Tədqiqat prosesində son dövrlərdə aqrar sahəyə dövlət yardımının əhəmiyyəti əsaslandırılmış, bu yardımların daha intensiv və ardıcıl olması ilə bağlı təklif və tövsiyələr hazırlanmışdır. Burada dövlət yardımı məsələlərinə, aqrar sahənin makroiqtisadi tənzimlənməsi məntiqi ilə baxılmış, xüsusilə son dövrlərdə aqrar sahənin maddi-texniki bazasının gücləndirilməsi imkanları müəyyənləşdirilmişdir.

Ümumilikdə aqrar iqtisadiyyatın formalaşması və inkişafında mikro-kreditlərin, subsidiyaların rolunun artırılması, kəndli fermer təsərrüfatçılığının inkişafı və təkmilləşdirilməsi, aqrar sahənin sahə strukturunun təkmilləşdirilməsi, ərzaq təminatının yaxşılaşdırılması, aqrar sahədə əmək ehtiyatlarının formalaşması, onlardan istifadənin təkmilləşdirilməsi məsələləri ilə bağlı təklif və tövsiyələr verilmişdir. İşdə aqrar iqtisadiyyatın sürətləndirilməsində və təkmilləşdirilməsində kredit qoyuluşlarının rolu araşdırılmış və getdikcə bu işin daha məzmunlu olduğu fikri irəli sürülmüşdür. Tədqiqatçı aqrar sahənin kreditləşmə mexanizmində bankların hələlik kifayət qədər rol oynamadıqlarını göstərmiş və aqrar bank sisteminin genişləndirməsini tövsiyə etmişdir. Kreditlərin əsasən emal sahəsinin qoyduğu məntiqlərini müsbət hal adlandırmışdır. Tədqiqat işində kəndli fermer təsərrüfatçılığının inkişafı və təkmilləşdirilməsi istiqamətləri geniş tədqiq edilmiş, aqrar



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sektorun sahə strukturunun təkmilləşdirilməsi məsələləri və ərzaq təminatının yaxşılaşdırılması məsələləri də geniş tədqiq edilərək müvafiq təkliflər verilmişdir.

**Xarici iqtisadi əlaqələrin nəzəri və praktiki məzmun daşıyan problemlərinin təhlil və dəyərləndirilməsinə həsr edilən elmi araşdırmalar**. AMEA-nın müxbir üzvü, i.e.d., prof. A.K.Ələsgərovun rəhbərliyi ilə "Xarici iqtisadi əlaqələrin nəzəri və metodoloji problemləri" mövzusu işlənilərkən xarici iqtisadi əlaqələrin məzmunu, mahiyyəti, amilləri, göstərici və prinsipləri işlənilmş, iqtisadi əlaqələrin təkmilləşdirilməsinin istiqamət və yolları əsaslandırılmışdır. Mütəxəssislər ixrac və idxalın quruluşunun təhlili əsasında müyyən etmişdilər ki, respublikanın ixrac əməliyyatlarının 70%-dən çoxu xam mala, idxal əməliyyatlarının 40%-i ərzaq məhsullarının alınması təşkil edir. Dəyərləndirmələrdə respublikanın idxal-ixrac əməliyyatları strukturunda pozitiv tendensiyaların müşahidə edilməsi istiqamətində müvafiq dəyərləndirmələr aparılmışdı. Eyni zamanda AMEA-nın müxbir üzvü, i.e.d., prof. A.K.Ələsgərovun rəhbərliyi ilə "Müstəqil Azərbaycan Respublikasının bazar iqtisadiyyatı münasibətlərinə keçid dövründə xarici ölkələrlə iqtisadi əlaqələri (İran İslam Respublikası)" mözusu ilə əlaqədar araşdırmalarda çox illik daxili və xarici mənbələr əsasında idxal-ixrac, elmi-texniki əməkdaşlıq, investisiya qoyuluşu, valyuta, maliyyə-kredit, turizm, beynəlxalq informasiya, iş qüvvəsinin miqrasiyası, valyuta fondunun formalaşması məsələləri dəyərləndirilmişdir. Müşahidələr zamanı məlum olmuşdur ki, 1990-cı illərin birinci yarısında respublikaya 21 bölmə və 195 iri adlıqlar üzrə bir sıra ölkələrlə iqtisadi əlaqələr mövcud idi. Lakin 1990-cı illərin birinci yarısında xarici iqtisadi əlaqələrdə İran xüsusi yer tuturdu. Bu zaman idxal-ixrac əməliyyatlrının 3/1 hissəsinin İran İslam Respublikasının payına düşdüyü xüsusi olaraq bildirilirdi. Tədqiqat zamanı ölkələr arasında iqtisadi əlqələrin genişləndirilməsi istiqamətləri kimi təkcə tranzit və xam mal resurslarının daşınması deyil, birgə müəssisələrin də fəaliyyətinin genişləndirilməsinin vacibliyi fikri əsaslandırılırdı. Qeyd etməklazımdır ki, 1990-cı illərdə A.K.Ələsgərovun rəhbərliyi ilə AMEA İqtisadiyyat İnstitutunda həmçinin Azərbayan Respublikasının Rusiya Federasiyası, MDB, GUAM, Qərbi Avropa və Türkiyə Cumhuriyyəti ilə iqtisadi əlaqələrinin genişləndirilməsi məsələlərinin araşdırılması ilə əlaqədar ciddi işlər görülmüşdür. Tədqiqatlar xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsinin nəzəri metodoloji əsasları, iqtisadi əlaqələrin qurulmasında strateji tərəfdaşlıq fəaliyyətinin istiqamətlərinin müəyyənləşdirilməsi, müstəqil dövlətin xarici iqtsadi ələqələri inkişaf etdirilərkən iqtisadi və ərzaq təhlükəsizliyi problemlərinə xüsusi əhəmiyyət verilməsi və s. kimi məsələlərlə əlaqədardır. Bu xüsusda 1990-cı illərin ikinci yarısında AMEA-nın müxbir üzvü, i.e.d., prof. A.K.Ələsgərovun rəhbərliyi ilə "Azərbaycan Respublikasının Rusiya Federasiası ilə iqtisadi əlaqələri" mövzusu üzərində bir qədər ətraflı dayanmaq yerinə düşərdi. Müşahidələr Azərbaycan Respublikasının Rusiya Federasiası ilə xarici iqtisadi əlaqələrinin müasir vəziyyəti, idxal-ixrac əməliyyatları, investisiya qoyuluşu, birgə və birbaşa müəssisələrin yaradılması, elmi və texniki əməkdaşlıq, valyuta-kredit məsələləri, turizm və digər sahələr üzrə iki respublika arasına iqtisadi əlaqələrin dövlət rərəfindən tənzimlənməsi yollarının müəyyənləşdirilməsi istiqamətində aparılaraq bir sıra tövsiyyələr irəli sürülmüşdür və müəyyən edilmişdi ki, 1992-1998-ci illərdə Azərbaycanda rus kapitalı ilə çalışan 108 birgə müəssisə mövcud olmuşdur. Bu müəssisələrdən anacq 15%-nin 100%-li rus kapitalı əsasında çalışdığı göstərilir. İqtisadi əməkdaşlıqda ən mühüm yeri ticarətin tutduğu və ticarət əməliyyatların 20% -qədər payı olduğu bu sahədə ən əhəmiyyətli yerin "Luk-Oyl" şirktinə məxsus olduğu da qeyd olunurdu. Daha bir maraqlı fakt kimi 1991-1997-ci illərdə iki ölkə arasında xarici iqtisadi əlaqələrin genişləndirilməsinə xidmət edən 40-a qədər dövlətlərarası müqavilə sənədlər dəyərləndirlirdi və Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin təkmilləşdiriılməsi istqamətində təkliflər irəli sürülürdü. A.K.Ələsgərovun rəhbərliyi ilə "Azərbaycan Respublikasının Orta



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Asiya ölkələri ilə iqtisadi əlaqələrində mövcud vəziyyət" üzrə araşdırmalar da aparılmışdır. Araşdırmalar zamanı idxal-ixrac əməliyyatları, investisiya quruluşu, elmi-texniki əməkdaşlıq, xrici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi məsələləri ilə əlaqədar dəyərləndirmələr edilmişdir.

**Demoqrafiya, məşğulluq və sosial problemlərin öyrənilməsi istiqamətində yerinə yetirilən elmi tədqiqatlar.** 1990-cı illər i.e.d., prof. Ş.M.Muradovun rəhbərliyi ilə "Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan Respublikasında əmək ehtiyatlarının təkrar istehsalı və iş qüvvəsindən istifadənin sosial-demoqrafik aspektləri", "Bazar iqtisadiyyatına keçid şəraitində demoqrafik inkişafın və məşğulluğun sosial-iqtisadi problemləri" mövzuları işlənilmişdir. Araşdırmalar zamanı statistik materiallar əsasında müxtəlif demoqraik qrupların əmək ehtiyatlarının təkrar istehsalı və iş qüvvəsindən istifadədə mövcud vəziyyətdə baş verən yeni meyillər, əmək ehtiyatlarının hərəkət dinamikası, məşğuliyyət səviyyəsi quruluşu təhlil edilmiş, bazar iqtisadiyyatına keçid şəraitində səmərərli məşğulluq, fəal əmək bazarı, demoqrafik siyasətin nəzəri-metodoloji əsasları, əhali artımında baş verən dəyişikliklərin kəmiyyət və keyfiyyət göstəriciləri, səmərəli məşğulluq və demoqrafik siyasətin təkmilləşdirilməsi məsələləri dəyərləndirilimişdir. Qeyd etmək lazımımdır ki, əhalinin demoqrafik quruluşunun xüsusiyyətləri, məşğulluğun səviyyəsi və quruluşuna təsir edən amillər kompleks halda təhılil edilərək, məşğulluğa dair "klassik", "neoklassik", "marksist", "keynsçi" nəzəriyyələr analitik təhlillər əsasında nəzərdən keçirilmiş, yeni dövrdə məşğulluq və işsizlik səviyyəsinin müəyyən edilməsi metodikaları hazırlanmış, keçid iqtisadiyyatı şəraitində müxtəlif mülkiyyət növləri və təsərrüfat formalarının yaranıb inkişaf etməsi, transformasiyası şəraitində əmək bazarının formalaşması xüsusiyyətləri və qanunauyğunluqları, məşğulluq səviyyəsi və quruluşu, məşğul əhalinin iqtisadiyyatın formal və qeyri formal, dövlət və qeyri-dövlət, fərdi sektorrlar arasında bölünməsi nisbətləri aydınlaşdırılmış, bu nisbətdə baş verən dəyişikliklər, yeni meyllər, ona təsir və əks təsir edən amillər aşkarlanmış, əldə edilmiş elmi nəticələrə ümumiləşdirilərək Azərbaycan Respublikasında məşğulluq siyasətinin təkmilləşdirilməsi istiqamətində bir sıra təkliflər hazırlanmışdır. Eyni zamanda "Azərbaycan Respublikasında əhalisakinliyinin sosial iqtisadi problemləri" işlənilmişdir. Araşdırmalar zamanı Azərbaycan və Ukrayna Elmlər Akademiyalarının müvafiq qurumları arasında fikir mübadilələri aparılmışdır. Tədqiqatların ilkin mərhələsində 100 il ərzində yəni 1897-1997-ci illərdə Azərbaycan Respublikasında demoqrafik situasiyanın dəyərləndsirilməsinə imkan yaradan bir sıra göstəricilər (əhalinin sayı, yaş-cins tərkibi, təbii-artım göstəriciləri-doğum, ölüm, miqrasiya göstəriciləri, əhalinin şəhər və kənd yerləri arasında bölünməsi nisbətləri) tədqiq edilmişdir. Tədqiqatlar zamanı əsas diqqət yetirilən məsələlər qismində əhali sakinliyinin inkişaf tendensiyalarına kəskin təsir edən amillər, eyni zamanda bu amillərə qarşı yönəldilən demoqrafik inkişaf sahəsində dövlət siyasətinin məqsəd və vəzifələri, prinsipləri, milli prioritetləri, reallaşması mexanizmlərinin əsas tərkib hissələri, istiqamətləri dəyərləndirilmişdir. Tədqiqatların nətcələri ümumiləşdirilərək "Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası" işlənilib hazırlanmış və 1999-cu il 9 dekabr sərəncamı ilə müsbət rəy almışdır.

**Nəticə**

XX əsrin 90-cı illərində Azərbaycan iqtisadçılarının elmi tədqiqatlarının başlıca məzmunu bazar iqtisadiyyatı münasibətlərinin formalaşması, keçid prosesinin nəzəri-metodoloji və praktiki məsələlərinin araşdırılması, respublika iqtisadiyyatının böhran vəziyyətindən çıxarılaraq sabit inkişaf yoluna daxil olmasının təşkili məsələlərinə həsr olunmuşdur. Tədqiqatlar zamanı keçid dövrünün neqativ meyilləri, respublika iqtisadiyyatının böhrandan çıxarılması və makroiqtisadi tarazlığa və dinamik iqtisadi inkişafa nail olunması, ölkədə demoqrafik situasiyanın və insan amilinin iqtisadi inkişaf prosesində yeri və rolunun



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

düzgün qiymətləndirilməsi, aqrar sektor, maliyyə və bank, xidmət sahələri, vergi mexanizmlərinin təkmilləşdirilməsi, keçid dövründə Azərbaycan iqtisadiyyatı və iqtisadi fikir tarixinin inkişaf xüsusiyyətləri kimi məsələlərlə əlaqədar çoxşaxəli elmi araşdırmalar aparılmışdır.

**Ədəbiyyat**

1. Nadirov A.A. "Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri". Bakı, "Elm", 2001.
2. Nuriyev Ə.X. " Regional idarəetmənin əsasları". Bakı, Elm, 2007.
3. Ələsgərov A.K. "Azərbaycan Respublikasında bazar iqtisadiyyatı münasibətlərinin yaranması, formalaşması və inkişafı". "Azərbaycanda XXI əsrin astanasında" Elmi-praktiki konfransın materialları. Bakı, 1998.
4.Muradov Ş.M. " Müstəqillik illərində Azərbaycan Respublikasında demoqrafik inkişaf meyllərinin təhlili, qiymətləndirilməsi və nizamlanması istiqamətləri". AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, 2004, № 1.
5.Nəbiyev N. "İqtisadiyyat, cəmiyyət və ekoloji mühit". Bakı, Elm, 2000.

***Айгюн Хайрулла кызы Фаталиева***

***Выдвинутые предложения и рекомендации в связи с ускорением экономического развития 90-х годов XX века***

***Резюме***

*В 90-е годы XX века основное направление научных исследований экономистов Азербайджана были вопросы формированию рыночной экономики, изучену теоретических и методологических и практических вопросов переходного периода, вопросам выхода экономики страны от кризисной ситуации.*

***Ключевые слова:*** *рыночная экономика, кризис, регионы, экономическая зона, рыночные отношения, переходная фаза, исследование*



***Ayqun Xayrulla Fataliyeva***

***In connection with the acceleration of economic development in the 90s of the XX century surulan suggestions and recommendations forward***

***Summary***

*In the 90s of the 20th century, the main content of scientific researches of Azerbaijani economists was devoted to the organization issues such as the formation of the market economy, the study of the theoretical and methodological and practical issues of the transition process, the removing republic's economy from the crisis and entering to the path of sustainable development.*

***Key words:*** *market economy, crisis, regions, economic zone, market relations, transition phase, researches*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:10.05.2019.***
***Çapa qəbul olunub:13.05.2019.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*